AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

THE EXAMPLE OF PROPHET NOAH IN SOCIAL REFORM EFFORTS

Shargiya Salmanova[1]

UDC: 297.; 297.18.
LBC: 86.39; 86.31
HoS: 34
DOI: 10.33864/2790-0037.2024.v5.i3.26-34

Keywords:

Prophet Noah,
Story,
Nineveh,
Gilgamesh,
Nakhchivan,
Nuhbatan

ABSTRACT

The story of the prophet and his people, which is a feature of universality, is included in the Holy Quran under the name Qissa, in other sacred books, and forms an example of all eras with the meaning they carry. A society that opposes the creator and behaves in a way that would overturn his order, worshiping idols made by his own hands and directing others to blasphemy along with themselves is doomed to divine wrath by constantly exhibiting behaviors that would upset the social balance. One of these examples, the people of Noah, is an example and an example for representatives of all times, both because it is included in the sacred texts of the heavenly religions and because it is mentioned as an example in texts in addition to religion. Nowadays, with archaeological discoveries, the areas inhabited by these peoples, with the discovery of material evidence related to them, the increased interest in the stories and times of the Prophet opens the door for new research on these peoples to be carried out on a scientific level. Examining the story about Noah's people from different aspects gives life to the exchange of ideas about whether the events that will lead to the Flood that the people lived in are similar to the events that are happening today, as well as new scientific researches in the direction of falsifying hypotheses about the area where Noah lived after the flood.

[1]. Azerbaijan Institute of Theology, Master's student in History of Religion; Baku, Azerbaijan
E-mail: salmanovasalmanova88@gmail.com
https://orcid.org/0009-0007-5980-0829
To cite this article: Salmanova, Sh. [2024]. The Example of Prophet Noah in Social Reform Efforts. *History of Science journal, 5(3),* pp.26-34.
https://doi.org/10.33864/2790-0037.2024.v5.i3.26-34

Article history:
Received: 17.07.2024
Accepted: 02.09.2024

SOSİAL İSLAHAT CƏHDLƏRİNDƏ NUH PEYĞƏMBƏR ÖRNƏYİ

Şərqiyə Salmanova[1]

UOT: 297.; 297.18.
KBT: 86.39; 86.31
HoS: 34
DOI: 10.33864/2790-0037.2024.v5.i3.26-34

Açar sözlər:

Nuh peyğəmbər,
Qissə,
Ninova,
Qılqamış,
Naxçıvan,
Nuhbatan

ANNOTASİYA

Universallıq xüsusiyyəti olan Qurani kərimdə qissə adı ilə yer alan peyğəmbər və qövmlərinin hekayəsi digər müqəddəs kitablarda da, yer alaraq və daşıdıqları məna ilə bütün dövrlərə örnək təşkil edir. Yaradıcıya qarşı gəlib, onun nizamını alt üst edəcək tərzdə davranış sərgiləyən, öz əlləri ilə hazırladıqları bütlərə sitayiş edərək özləri ilə bərabər digərlərini də küfrə yönəldən bir toplum daima sosial tarazlığı pozacaq davranışlar sərgiləməsi ilə ilahi qəzəbə düçar olmağa məhkumdur. Bu örnəklərdən biri olan Nuh qövmü həm səmavi dinlərin müqəddəs mətnlərində yer alması həm də dindən əlavə mətnlərdə də örnək olaraq bəhs edilməsi ilə bütün zamanların nümayəndələrinin örnək alacağı bir ibrət və hidayət vəsiləsidir. Günümüzdə arxeoloji kəşflərlə bu qövmələrin yaşadıqları ərazilər, onlara aid maddi dəlillərin aşkarlanması ilə peyğəmbər hekayələrinə və dövrünə olan marağın artması, bu qövmlər haqqında yeni araşdırmaların elmi müstəvidə aparılmasına qapı açır. Nuh qövmü haqqında olan qissənin müxtəlif aspektlərdən araşdırılması isə həm qövmün yaşadığı Tufan hadisəsinə səbəb olacaq hadisələrin günümüzdə baş verən olaylarla oxşarlıq təşkil edib etməməsi haqqında fikir mübadilələrinə, həmçinin tufandan xilas olduqdan sonra Nuhun yaşadığı bölgənin hansı ərazi olması barədə fərziyələrin dəlilləşdirilməsi yönünüdə yeni elmi araşdırmalara həyat verir.

---

[1]. Azərbaycan İlahiyyat İnstitutunun "Dinlərin Tarixi" ixtisası üzrə magistrantı; Bakı, Azərbaycan
E-mail: salmanovasalmanova88@gmail.com
https://orcid.org/0009-0007-5980-0829
Məqaləyə istinad: Salmanova, Ş. [2024]. Sosial İslahat Cəhdlərində Nuh Peyğəmbər Örnəyi. *History of Science jurnalı, 5(3)*, səh.26-34.
https://doi.org/10.33864/2790-0037.2024.v5.i3.26-34

Məqalənin tarixçəsi:
Məqalə redaksiyaya daxil olmuşdur: 17.07.2024
Təkrar işlənməyə göndərilmişdir: 09.08.2024
Çapa qəbul edilmişdir: 02.09.2024

History of Science Journal
Vol 5, issue 3, serial 17, 2024, pp.26-34

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

ПРИМЕР ПРОРОКА НОЯ В УСИЛИЯХ ПО СОЦИАЛЬНЫМ РЕФОРМАМ

Шаргия Салманова[1]

УДК: 297.; 297.18.
ББК: 86.39; 86.31
HoS: 34
DOI: 10.33864/2790-0037.2024.v5.i3.26-34

Ключевые слова:

Пророк Нух,
Кисса,
Нинова,
Кылгамыш,
Нахчыван,
Нухбатан

АННОТАЦИЯ

История пророка и его народа, содержащаяся под названием Кисса в Священном Коране, являющаяся признаком универсальности, является примером для всех времен, как и в других священных книгах, с тем смыслом, который они содержат и несут. Общество, которое противостоит создателю и демонстрирует поведение таким образом, чтобы оно подавляло его порядок, которое, поклоняясь идолам, сделанным своими руками, ведет к богохульству как самих себя, так и других, всегда обречено на божественный гнев, демонстрируя поведение, которое нарушит социальное равновесие. Один из этих примеров, народ Ноя, является примером и руководством, которому последуют представители всех времен, с его включением в священные тексты небесных религий и упоминанием религии в качестве примера в дополнительных текстах. Сегодня, с археологическими открытиями на территории, населенной этими племенами, и обнаружением вещественных доказательств, относящихся к ним, возросший интерес к пророческим историям и эпохе открывает двери для новых исследований этих племен в научном плане. Изучение истории о народе Ноя с разных сторон дает жизнь как обмену мнениями о том, имеют ли события, приведшие к грозе, в которой они жили, сходство с тем, что происходит сегодня, так и новым научным исследованиям, направленным на доказательство гипотез о том, какой была территория, в которой жил Ной после того, как он пережил грозу.

[1]. Азербайджанский Институт Теологии, Магистрант по специальности «История религии»; Баку, Азербайджан
E-mail: salmanovasalmanova88@gmail.com
https://orcid.org/0009-0007-5980-0829
Цитировать статью: Салманова, Ш. [2024]. Пример пророка Ноя в усилиях по социальным реформам. *Журнал History of Science, 5(3),* с.26-34.
https://doi.org/10.33864/2790-0037.2024.v5.i3.26-34

История статьи:
Статья поступила в редакцию: 17.07.2024
Отправлена на доработку: 09.08.2024
Принята для печати: 02.09.2024

1.Giriş

Müqəddəs kitablar və müxtəlif xalqların mif, əsatir, rəvayət kimi yazılı nümunələrində rast gəldiyimiz Nuh Tufanı hadisəsinə nəzər saldıqda xalqını tövhid inancına dəvət etmə cəhdləri, inananların azlığı fonunda inanmayan və bütpərəst bir qövmü hidayətə dəvət dövrü, bütün bunlarla yanaşı öz ailə fərdlərinin bəzi nümayəndələrinin onun təbliğinə uymaması Hz. Nuhun müxtəlif yönlərdən sınanması və səbrinin örnəyinin səmavi dinlərlə yanaşı, müxtəlif xalqların mətinlərində də bir səbr, ümid örnəyi kimi təsvir olunduğunun şahidi ola bilərik. Günümüzə qədər Hz. Nuhun peyğəmbər olaraq təbliğat dövrü sırasında yaşadığı hadisələr müxtəlif aspektlərdən analiz edilmiş, Quran, əhdi- ətiq, əhdi-cədid, hədis, israiliyyat, təsəvvüf, dastanlaşmış ədəbi nümünələrdən yola çıxaraq günümüz dünyasının nümayəndələrinin bu hadisəyə yanaşmaları bu hadisə ilə yanaşı müqəddəs kitablarda yer alan digər Peyğəmbər qissələrinin məqsədinin, hədəfinin nə olduğu müzakirə mənbəyi olmuşdur. Örnək olaraq verilən peyğəmbər qissələrində mifolojik ünsürlərin varlığı, onların insan həyatına yön verəcək şəkildə müqəddəs mətnlərdə təsvir edilməsi günümüz insanının elmi sübütlara əsaslanmayan hadisələrə inamının olmadığı bir zamanda bu örnəklərə yanaşma tərzi iman-ağıl arasında ziddiyyətli fikirlərin meydana çıxmasına səbəb olur. Qissələrin həqiqiliyinin sorğulanması Nuh Tufanı haqqında mövcud olan hadisənin gerçəkləşdiyi ərazi, gəminin quruya çıxdığı yer, hazırda hansı ölkə ərazisində gəminin olması və ya hadisə həqiqətən gerçəkləşdimi kimi sualların mövcudluğu dini mətnlərin elmi araşdırmaların obyektinə çevrilməsinə səbəb olmuşdur. Günümüzdə bu elmi araşdırmalar nəticəsində peyğəmbər qissələrinin yaşandığı ərazilərin müasir texnologiya ilə arxeoloji cəhətdən incələnməsi həyata keçirilərək, hadisələrin həqiqiliyinin araşdırılması qismən mümkün olmuş və o dövrün xüsusiyyətləri, coğrafi və relyef cəhətdən məlumatların əldə olunması təmin olunmuşdur. Nuh Tufanı hadisəsinin günümüzdə müxtəlif ölkələrdən olan həm peşəkar, həm də həvəskar araşdırmaçılar tərəfindən incələnməsi və nəticələrin içtimaiyyətlə paylaşılması nəticəsində insanlarda adı çəkilən ərazilərə marağı daha çox artırmışdır.

Məqalədə Nuh peyğəmbərin təbliğatının, günümüz ifadəsiylə, sosial islahat cəhdlərinin hər üç səmavi kitabda olan örnəklərinə nəzər salınmış, yaşadığı ərazinin Azərbaycan ola biləcəyi ilə bağlı müxtəlif fikirlərə də yer verilmişdir.

2.Əhdi-Ətiqdə Nuh peyğəmbərin təsviri

Yəhudiliyin müqəddəs kitabı sayılan və xristianlar tərəfindən Əhdi-Ətiq (qədim əhd) olaraq adlandırlan müqəddəs kitab 39 kitabdan ibarətdir. Bəzən yəhudi qaynaqlarında bu sayı 24, 22 olaraq da qeyd olunur.[*TDV İslam Ansiklopedisi*, 1988, s.494-501] Səbəb isə bəzi mövzuların cəm kimi qəbul edilib hesablanmasına əsasəndir. İbri dilində yazılan əhdi-ətiqdə yerin yaradılmasından, peyğəmbərlərin həyatlarının hər dövrünü əhatə edəcək hadisələr silsiləsinin təfərrüatlı izahını görə bilərik. Hz. Nuh haqqında olan məlumatlar isə Yaradılış bölməsinin 5-ci hissəsindən başlayaraq geniş şəkildə izah olunur. Bu hissəyə nəzər saldıqda Nuh peyğəmbərin Hz. Adəmin soyundan gəlməsi ilə bağlı olan şəcərənin şahidi oluruq. Əhdi -ətiqə əsasən Nuh peyğəmbərin Ham, Sam, Yafəs adında 3 oğlu olmuş, [*JW.org*, n.d.] zamanla yer üzərindəki insanlar pisliyə meyl etməyə başlamışdı. Müqəddəs kitabda verilən məlumata əsasən Rəbb insanların pis niyyətlə əhatələndiyini görüb, peşman olur və insan oğlunun başına gələcək Tufan hadisəsinin təməlləri buradan atılmağa başlayır: "*Rəbb gördü ki, yer üzündəki insanların şər əməlləri çoxdur və hər zaman onların ürəyindəki fikirlər və niyyətlər pisliyə doğru yönəlir. O, yer üzündə insanları yaratdığına peşman oldu və ürəyində kədərləndi. Rəbb dedi: «Yaratdığım insanları yer üzündən siləcəyəm, bunu insanlarla birgə heyvanların, sürünənlərin və quşların da başına gətirəcəyəm, çünki onları yaratmağıma peşman olmuşam». Ancaq Nuh Rəbbin gözündə lütf tapdı.*" [Yaradılış 6/5-8]

Rəbbin qarşısında insanların azğınlaşması, bəşərin yolunu azması, dünyada zorakılığın artması Rəbbi yer üzünü məhv etməyə sövq etdi və Nuh peyğəmbərə hazırlıqlara başlamasını söylədi: "Ancaq Allahın önündə yer üzündəki insanlar pozğunlaşmışdı və dünya zorakılıqla dolmuşdu. Allah yer üzündəki insanların daha da pozğunlaşdığını gördü, çünki dünyadakı bütün bəşər yolunu azmışdı. Allah Nuha dedi: Önümdə olan bütün bəşərin sonu çatıb, çünki yer üzü onların zorakılığı ilə dolub. Buna görə də Mən onları yer üzü ilə birgə məhv edəcəyəm." [Yaradılış 6/11-13]

Nuha gəmi hazırlamasını və bunun hansı ağacdan, hansı ölçüdə olması haqqında təlimatları verən Rəbb Nuhla əhd bağlayır və oğulları, arvadı, gəlinləri ilə birgə gəmiyə minməsini, onlardan və gəmiyə alacağı heyvanlardan başqa hər canlını məhv edəcəyini söyləyir. Tufan hadisəsinin baş verməsi ilə yer üzündə olan bütün canlılar məhv olur və birinci ayın birinci günü yer üzərindən su çəkilməyə başlayır, yeddinci gün isə Nuh gəmidən çıxaraq qurbangah hazırlayıb, Rəbbinə yandırma ayini ilə müxtəlif heyvanları qurban verir. Tanrı Nuha və oğullarına xeyir dua verib, bir daha belə bir həlakla canlıları məhv etməyəcəyini, onların soyunu bərəkətli və artan olacağını söyləyir. Bunun nişanəsi olaraq isə göy qurşağını yaratdğını bildirir: "Mənim sizinlə və sizinlə olan bütün canlılarla nəsillər boyu əbədi olaraq bağladığım əhdin əlaməti budur: buludda Öz göy qurşağımı qoyuram ki, Mənimlə yer üzü arasında olan əhdin əlaməti olsun. Mən yer üzünə bulud gətirdiyim zaman buludda göy qurşağı görünəcək. Onda Mən sizinlə və bütün canlı məxluqlarla bağladığım əhdi yada salacağam. Sular bir daha daşqına çevrilib bütün canlıları məhv etməyəcək. Buludda göy qurşağı olacaq. Mən Allah onu görüb yer üzündə yaşayan bütün canlı məxluqlarla bağladığım əbədi əhdi yada salacağam. Allah yenə Nuha dedi: «Mənim yer üzündə yaşayan bütün canlılarla bağladığım əhdin əlaməti budur»." [Yaradılış 9/12-17]

Tufandan sonra 350 il yaşayan Nuh peyğəmbərin ümumilikdə 950 il həyat sürdüyünü söyləyən Əhdi -Ətiq mətnində Qurani Kərimdə yer alan bəzi fikirlərin olmadığı görülür. Həmən dövrdə Nuhun təbliğatı, ailə üzvlərinin sayı, gəmiyə sığınanlar barədə məlumatlar arasında müxtəliflik mövcuddur. Qurani Kərimin məlumatlarından yola çıxaraq bunlar haqqında məlumatlara da məqalədə yer veriləcəkdir.

3.Əhdi-Cədiddə Nuh Peyğəmbər obrazı

Xoş xəbər, müjdə mənasına gələn Xristianlığın müqəddəs kitabı İncildə Nuh peyğəmbər haqqında məlumatlara nəzər saldıqda, bu barədə Mətta bölməsində məlumatların olduğunu görürük. Nuh peyğəmbər haqqında məlumatlar belə başlayır, İsa peyğəmbərə şagirdləri tərəfindən Qiyamət barəsində sual verildikdə, Hz. İsa bu barədə həmən günün Nuhun günlərinə bənzər, Nuhun dövrü necə idisə Bəşər Oğlunun zühür edəcəyi günün də eyni olacağını söyləyərək izah verir: "*Lakin o günü və o saatı nə göylərin mələkləri, nə də Oğul bilir. Atadan başqa heç kim bilmir. Nuhun günləri necə idisə, Bəşər Oğlunun zühuru da elə olacaq. Daşqından əvvəlki həmin günlərdə, Nuhun gəmiyə girdiyi günə qədər insanlar yeyib-içir, evlənir, ərə gedirdi. Daşqın gəlib hamısını aparana qədər bixəbər idilər. Bəşər Oğlunun zühuru da belə olacaq*". [Mətta 24/ 36-39]

Əhdi-Cəddiddə haqqında məlumat verilən bir hadisə Əhdi-Ətiqdə olan bir ayəyə istinad verilərək diqqətə çatdırılır. Nuh peyğəmbər haqqında olan ayələr də eyniylə Əhdi-Ətiq ayələrinə əsaslandırılır. Misal olaraq Nuh peyğəmbərin imanı barədə yer alan ayəyə nəzər saldıqda bu ayənin İbranilərə məktub hissəsində yer aldığını, istinad edilən ayənin isə Əhdi-Ətiqin yaradılış bölməsinəki hadisələrə əsasən olunduğunu görürük: "Nuh, imanı sayəsində, hələ görünməyən şeylərlə bağlı Allah tərəfindən xəbərdar ediləndən sonra Allah qorxusu ilə ailəsinin xilası üçün gəmi tikdi.O, imanı ilə dünyanı məhkum etdi və imandan doğan salehliyin varisi oldu." [İbranilərə məktub 11/7]

Nuh peyğəmbərin yaşadığı hadisələr İncildə Pyotra məktub [2:5, 3/ 5-7, Pyotra məktub] və İbranilərə məktub [11/7] hissələrində bütün detalları ilə təsvir olunub. Əhdi-Ətiqə

nəzərən Nuh peyğəmbərin təbliğatını, sosial islahat cəhdini Əhdi-Cədiddə daha aydın görmək olur. Misal olaraq Pyotra məktub hissəsində nəql olunan ayədə Nuh peyğəmbərdən "Salehlik carçısı" olaraq bəhs edilməsi bir peyğəmbər kimi onun öz vəzifəsini yerinə yetirdiyinin və Allah qatında ona saleh peyğəmbərlik statusunun verilməsinin şahidi oluruq: “Qədimdə allahsızlar dünyasını cəzasız qoymayıb onu daşqında məhv edərkən salehlik carçısı olan Nuhu və onunla bərabər yeddi nəfəri xilas etdi”. [İncil. Pyotra ikinci mətkub 2:1-22; Yaradılış 7:23(sitat gətirilən ayə)].

Əhdi-Ətiqdə isə Nuh peyğəmbərin təbliğatı, insanları haqqa dəvət etməsi haqqında təfərrüatlar yer almamışdır. Səmavi dinlərin müqəddəs mətnlərində Nuh peyğəmbərin sosial nizamı bərpa etmək cəhdləri ən gözəl və əhatəli şəkildə Qurani kərimdə təsvir olunmuşdur. Ümumən Xristian dünyasında Hz. İsa və Hz. Nuh obrazı çox vaxt eyniləşdirilərək, Hz. İsanın zühur edəcəyi günlə, Hz. Nuhun zamanının eyni əlamətlərə sahib olacağı, Hz. Nuhun tufandan xilas olaraq insanlığı da xilas etməsi ilə Hz. İsanın vəftiz suyu ilə insanları günahlardan təmizləməsi hadisələrində bu iki peyğəmbərin arasında oxşarlıq xüsusiyyətlərinin var olması haqqında fikirləri görə bilirik. Hətta Hz. Nuhun tufandan sonra göyərçini xəbər alması üçün uçurması da, Hz. İsaya bir işarə olaraq dəyərləndirilir.[*TDV İslam Ansiklopedisi*, 2007, s.224-227]

4.Nuh peyğəmbər Qurani Kərimdə

Müsəlmanların müqəddəs kitabı olan Qurani Kərimdə peyğəmbərlərin həyatı qissə adlanan qısa hekayələr şəklində nəql olunur. Özündən əvvəlki [Ali İmran, 3] səmavi kitabları təsdiqləyici olaraq göndərilən Qurani kərimin təməl hədəfinin hidayət, ibrət, təfəkkür olub, oxuyucusunun analiz-sintez qabiliyyətlərindən istifadə edərək, zehni qabiliyyətlərini inkişaf etdirmə, müxtəlif hadisələrdən nəticə çıxarma kimi bacarıqlarının fərqinə varmasını hədəfləyən Quran [Batar, 2014, s.155-183] ibrət verici qissələri ilə nazil olduğu vaxtdan əvvəlki dövrlərdə yaşamış və əvvəlki müqəddəs kitablarda bəhs olunan qövmlərin ibrətlik həyatlarını və peyğəmbərlərin təbliğ cəhdlərini ayəbəayə müttəqilərə xəbər verir. Ayələrdə bu qissələrin ağıl sahibləri üçün bir ibrət, inanan toplum üçün bir yol göstərici olduğu vurğulanır:

لَقَدْ كَانَ فِي قَصَصِهِمْ عِبْرَةٌ لِأُولِي الْأَلْبَابِ ۗ مَا كَانَ حَدِيثًا يُفْتَرَىٰ وَلَٰكِنْ تَصْدِيقَ الَّذِي بَيْنَ يَدَيْهِ وَتَفْصِيلَ كُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً لِقَوْمٍ يُؤْمِنُونَ

[Yusuf surəsi, 111-ci ayə]

(Peyğəmbərlərin) hekayətlərində ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət vardır. (Bu Quran) uydurma bir söz deyildir. Ancaq özündən əvvəlkilərin (ilahi kitabların) təsdiqi, (Allahın bəndələrindən ötrü) hər bir şeyin (bütün hökmlərin, halal-haramın) müfəssəl izahıdır. O, iman gətirən bir tayfa üçün hidayət (doğru yolu göstərən rəhbər) və mərhəmətdir!

Ağıl sahibləri üçün bir ibrət xüsusiyyəti daşıyan bu qissələrdən biri də Nuh qövmü haqqında olan qissədir. Qurani Kərimdə 27-yə yaxın surədə Nuh peyğəmbərdən bəhs olunur. Surə sayından da göründüyü kimi, digər səmavi kitablara nəzərən Quranda Nuh peyğəmbərin təbliği və məqalənin adında da qeyd olunduğu kimi sosial islahat cəhdləri daha geniş izah olunmuşdur. Əhdi-Ətiqdə Nuh peyğəmbərin nəsil şəcərəsi haqqında daha geniş verilirdisə, Qurani Kərimdə isə əsasən peyğəmbərin təbliğatı, o dövrdə qövmün hansı əqidədə olduğu və tufan hadisəsinə səbəb olacaq əməllərinin şahidi oluruq.

Surələrə nəzər saldığımızda, qövmün bütlərə sitayiş edən, onlara düz yola qayıtmalarını təbliğ edən Nuh peyğəmbərin divanə olduğunu, ona inananların isə səfil [Hud, 27] olduğunu müdafiə edən bir azğın toplum olduğunu görə bilirik. Onların özlərinə məxsus müəyyən adlarla adlandırılan bütləri var idi, hansı ki peyğəmbərin bütlərə sitayiş etməsinlər deyə qövmünü xəbərdar etməsinə baxmayaraq Tanrının bir xəbərdar edici olaraq onu göndərməyəcəyini söyləyib, onu peyğəmbərliyə belə layiq görməyən, zalım və azğın bir

qövm idilər. [Nəcm, 52] Peyğəmbərə başlarına bir bəla gəlmədən qövmünü xəbərdar etməsi vəzifəsi verilərkən, [Nuh, 1] qövmün irəli gələnləri onlara tabe olanları Nuha inanmaqdan çəkindirib, sitayiş etdiyi bütləri tərk etməmələrini təmbehləyir:

وَقَالُوا لَا تَذَرُنَّ آلِهَتَكُمْ وَلَا تَذَرُنَّ وَدًّا وَلَا سُوَاعًا وَلَا يَغُوثَ وَيَعُوقَ وَنَسْرًا.

[71. Nuh surəsi, 23-cü ayə]

"Və (tabeçiliyində olanlara) dedilər: "Öz tanrılarınızı tərk etməyin, (xüsusilə) Bəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri atmayın!"

Ayələrdən məlum olur ki, 950 ilə yaxın təbliğat aparan Nuh peyğəmbər [Əl-Ənkəbut 14] sonunda qövmünün inanmadığının şahidi olur və qövmü ona əgər söylədiyində həqiqət varsa vəd etdiyi əzabı gətirməsini tələb edirlər:

قَالُوا يَا نُوحُ قَدْ جَادَلْتَنَا فَأَكْثَرْتَ جِدَالَنَا فَأْتِنَا بِمَا تَعِدُنَا إِنْ كُنْتَ مِنَ الصَّادِقِينَ

[Hud surəsi, 32-ci ayə]

Onlar dedilər: "Ey Nuh! Bizimlə çənə-boğaz olub çox mübahisə etdin. Əgər doğru danışanlardansansa, bizi təhdid etdiyin əzabı gətir görək!"

Vəhyindəki əzabın gerçəkləşəcəyinə şübhəsi olmayan Nuh peyğəmbərin kədərləndiyini görən Tanrının ona təsəlli üçün özü və ailəsi ilə birgə ilk inananları da xilas edəcəyinin müjdəsini verir:

وَأُوحِيَ إِلَىٰ نُوحٍ أَنَّهُ لَنْ يُؤْمِنَ مِنْ قَوْمِكَ إِلَّا مَنْ قَدْ آمَنَ فَلَا تَبْتَئِسْ بِمَا كَانُوا يَفْعَلُونَ

[Hud surəsi, 36-cı ayə]

"Nuha belə vəhy olundu: "*Əvvəlcə iman gətirənlərdən başqa, tayfandan daha heç kəs iman gətirməyəcək. Onların etdikləri əməllərə görə kədərlənmə! (Biz tezliklə onları məhv edər, səni kafirlərin zülmündən qurtararıq!)*"

Nuh peyğəmbərə qövmü tərəfindən edilən əziyyət, qövmünün azğınlığı Qurani Kərimin müxtəlif surələrində yer alan və Nuh Duası olaraq adlandırılan ayələrdə də öz əksini tapmışdır. Bu dualara nəzər saldıqda peyğəmbərin ona inananları xilas etməsi üçün dualarının, kafir qövmü yer üzündən silməsi üçün Tanrıya yalvarmasının və bunun səbəbinin isə kafirlərdən kafir uşaqların törəyəcəyini söyləyir: [əş-Şuəra surəsi, 118-ci ayə]

"Artıq mənimlə onlar arasında Sən hökm ver, məni və mənimlə birlikdə olan möminləri (bu əzabdan) qurtar!" Nuh dedi: "Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma! Çünki sən onları (sağ) buraxsan, onlar Sənin bəndələrini yoldan çıxardacaq, ancaq pozğun və kafir (oğul-uşaq) doğub-törədəcəklər".

Nuh duaları günümüzdə inananlar tərəfindən ibadətləri zamanı çox istifadə olunan dualardan sayılır və günümüz inanının problemlərinin əsrlər öncə yaşayan peyğəmbərin rastlaşdığı problemlərlə eynilik təşkil etdiyini göz önünə sərir:

[Nuh surəsi, 28-ci ayə]

Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və (bütün) mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır". [əl-Muminun surəsi, 26-cı ayə]

O dedi: "Ey Rəbbim! Onların məni yalançı saymasına qarşı mənə kömək et!"

[Hud surəsi, 47-ci ayə]

"O dedi: "Ey Rəbbim! Bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamasan, mənə rəhm etməsən, ziyana uğrayanlardan olaram".

Allaha olan bağlılığı və imanı sayəsində, ona etdiyi dualar vasitəsi ilə [Şüara 118; Qəmər 10; Nuh 5-6; Muminun 26; Səffat 75; Nuh 26-27] qövmündən inananlarla birgə tufandan xilas olan Nuh peyğəmbər günümüzdə də bu dualar vasitəsi ilə bəndələrin, inananların təskinliyinə səbəb olur. Bu da öz növbəsində əsrlər keçsə də Quranın, ayələrin, seçilmiş təbliğçilər olan peyğəmbərlərin əsrlər öncəsindən günümüzə uzanan və insanlığı həm mənəvi həm də əməli qaranlıqdan aydınlığa doğru aparan bir vasitə olmalarına danılmaz bir örnəkdir.

5.Müxtəlif mənbələrdə Nuh peyğəmbərin yaşadığı ərazi haqqında məlumatlar

İnsanları, ən əsası inananları hidayətə çatdırmaq, ibrət və öyüd kimi xüsusiyyəti olan qissələrin təkcə islam və ya digər səmavi dinlərdə deyil, qeyri dini yazılı mətnlərdə, xalqların şifahi və yazılı ədəbiyyatında da örnəklərinin şahidi oluruq. Məqaləmizin əsas obyekti olan Nuh peyğəmbər və Tufan hadisəsi də bu örnəklərdəndir. Tədqiqatlar zamanı Nuh peyğəmbər adının fərqli şəkillərdə, fərqli adlarla olsa da, lakin yenə bir Tufan hadisəsində qövmünü hidayətə səsləyən obraz olaraq əks olunduğu örnəklərdə yer aldığını görürük. Məsələn Ninova ərazisində [Çimen, 2005, s.39–71] aparılan arxeoloji qazıntılar zamanı Assuriya kralına aid olan kitabxanada tapılan kitabədə Tufan hadisəsindən bəhs edilmiş, və bu hissənin Qılqamış dastanının da son hissəsində yer aldığını görürük. Nuh obrazının bu hekayədə Utnapiştim adı ilə təsvir olunduğu [Ataman, 2016, s.146] və ölümsüzlük axtarışında olan Qılqamışa bu hadisəni nəql etdiyini, eyni tufan hadisəsinin Altay türklərinin yazılı nümumələrində də yer aldığını və Nuh obrazının Nama adı ilə təsvir olunduğunun şahidi oluruq. [Yiğit, 2021, s.10-13] Nuh peyğəmbərin yaşadığı bölgə, gəminin quruya çıxdığı ərazi olaraq müxtəlif yerlərin adları bu mövzu ilə bağlı bir çox araşdırmalarda yer alır. Bu mövzu ilə bağlı ən diqqət çəkici fikirlərdən biri Hz. Nuhun məzarının Naxçıvan ərazisində olması ilə bağlı fikridir. Rus əsilli tədqiqatçı Konstantin Nikitinin fikrinə əsasən Nuhun məzarı Naxçıvanda yerləşir. [Никитин, 1882, с.142] Onunla yanaşı 106 yaşında vəfat edən Dç. Dr Lətif Hüseynzadə də Nuh peyğəmbərin məzarının yerini göstərmiş, komisiya üzvləri ilə birgə həmən yerin tərifini vermişdir. [Latifoğlu, 2019] Həmən tərif edilən yer hazırda Nuhbatan olaraq adlandırılır və o bölgədə Nuh Türbəsi inşa olunmuşdur. Etimoloji mənasına diqqət yetirdikdə də, şahidi oluruq ki, Naxçıvan adı "Nuh Çıxan" [Агаева, Везиров- Кенгерли, 2021, с.36-40] mənasını verir və bu da bizdə Nuh peyğəmbərin Naxçıvan ərazisində yaşaması haqqında olan fikirlərin doğru ola biləcəyi haqqında yəqinlik yaradır.

6.Nəticə

Tanrı vasitəsi ilə bir din və ya dini doktrinanı yaymaq və təlim etməklə vəzifələndirilən peyğəmbərlər daima istər öz yaşamları, istərsə də göndərildikləri qövmlərin həyat tərzləri ilə örnək olaraq göstərilirlər. Biz peyğəmbərlər və onların qövmləri haqqında məlumatları hər üç səmavi dinin müqəddəs kitablarında yer alan peyğəmbər hekayələrindən, yəni qissələrdən alırıq. Qissələrin təməl hədəflərindən olan insanları hidayət etmə və həqiqəti çatdırma vəzifəsini yerinə yetirən peyğəmbərlərin göndərildikləri qövmlərin həyat tərzləri, haqqa dəvət yolunda etdikləri asilik yalnız hadisənin yaşandığı zamanla məhdudlaşmayıb, günümüzdə də öz aktuallığını saxlayır. Bu şəkildə təbliğə mane olan və peyğəmbərlərinə inanmayıb ilahi cəza ilə həlak edilən qövmlərdən biri sayılan Nuh qövmü haqqında məlumatlar hər üç səmavi dinin müqəddəs kitabında yer almışdır. Əhdi-Ətiqdə əsasən Nuh peyğəmbərin şəcərəsi haqqında geniş bir məlumat yer almış, Əhdi-Cədiddə isə Nuh qövmünün başından keçən tufan hadisəsindən əvvəl onların sahib olduqları əqidə və zəmanənin hansı şəkildə, hansı çalarda olması Tövratdan alınan sitatlarla izah olunmuşdur. Qurani Kərimdə isə peyğəmbərlərin vəzifəsi olan təbliğin geniş şəkildə izahını görürük. Nuh peyğəmbərin sosial islahat cəhdlərini təfərrüatlı şəkildə izah edən 27 yə yaxın surənin mövcudluğu həm qövmün sahib olduğu əqidə, sitayiş etdikləri bütlərin adları, peyğəmbərə qarşı inamsızlıqlarına səbəb olan arqumentlər, peyğəmbəri günahlandırmaları və təbliğə qarşı çıxıb, inananlara mane olmaları fonunda Nuh peyğəmbərin dua vasitəsiylə Allahdan xilas olmağı istəməsi geniş şəkildə izah olunur. Bu məqalədə hər üç səmavi kitabda və bununla yanaşı qeyri dini mətnlərdə yer alan Nuh peyğəmbər haqqında məlumatlara yer verilmiş, həmçinin Nuh peyğəmbərin yaşadığı ərazi haqqında olan maraqlı fikirlər öz əksini tapmışdır. Bu məlumatlara əsasən belə bir nəticəyə gəlmək olar ki, hər nə qədər fərqli ana obraz və coğrafi məkan fərqi olsa da Tufan hekayəsinin demək olar ki, dünyanın müxtəlif

bölgələrində yaşayan xalqların həyatlarında bir şəkildə özünə yer tapması ilə əsas hədəfinin təbliğ edici və ya məkan olmadığı, hədəfin yaradıcını tanıyıb, ona asi olmamaq, şərik qoşmamaq və sosial rifaha mane olacaq hallardan uzaq qalmağı təbliğ etmək olması anlaşılır.

ƏDƏBİYYAT

1. *TDV İslam Ansiklopedisi.* (1988). İstanbul: *Cild 1, s. 494–501.*
2. *JW.org.* (n.d.). *https://www.jw.org/az/*
3. *eBible.* (n.d.). *https://ebible.org/azb/MAT01.htm*
4. *TDV İslam Ansiklopedisi.* (2007). İstanbul: *Cild 33, s. 224–227.*
5. Batar, Y. (2014). Kur'an Kıssalarının amaçlarıyla ilgili kavramların eğitim öğretim açısından tahlîli. *İslâmî İlimler Dergisi, 9*(1), 155–183.
6. *Qurani-Kərimin Azərbaycan dilinə mənaca tərcüməsi*. (2020). Bakı: N Print Studiyası MMC, 576 p.
7. *Quran.az.* (n.d.). *https://quran.az*
8. Çimen, A. E. (2005). Helak, devam eden bir süreç midir? *Usul İslam Araştırmaları, 4*(4), 39–71.
9. Yiğit, F. M. (2021). *Türk mitolojisinde Nuh Tufanı ve Sümer Türkleri ile Ubara Tutu Kağanın altın öğütleri*. s.10-13.
10. Ataman, S. (2016). *Unutturulan ayetler*. İstanbul: Berfin Yayınları, s.146.
11. Никитин, К. А. (1882). Город Нахичевань и Нахичеванский уезд. Тифлис, *Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК)*, вып.2, отд.1, с.142.
12. Latifoğlu, R. (2019). İskele, Skala, Skul, Okul: Eğitimin ilk tarihi mekanı. *Anamur Sedir*.
13. Агаева, Ф. Н., & Везиров- Кенгерли, Ф. Х. (2021). Город Нахчыван – Начало Начал. *Humanitarian Balkan Research, 5*(2), 36–40.

REFERENCES

1. *TDV Islamic Encyclopedia. Volume 1.* (1988). Istanbul, pp. 494–501. (In Turkish)
2. JW.org. (n.d.). https://www.jw.org/az/ (In Azerbaijani)
3. eBible. (n.d.). https://ebible.org/azb/MAT01.htm (In Azerbaijani)
4. TDV Islamic Encyclopedia. *Volume 33.* (2007). Istanbul, pp. 224–227. (In Turkish)
5. Batar, Y. (2014). Analysis of the concepts related to the purposes of the Quranic stories from an educational perspective. *Islamic Sciences Journal, 9*(1), 155–183. (In Turkish)
6. *Holy Quran's semantic translation into Azerbaijani.* (2020). Baku: N Print Studio LLC, 576 p. (In Azerbaijani)
7. *Quran.az.* (n.d.). https://quran.az (In Azerbaijani)
8. Chimen, A. E. (2005). Is destruction an ongoing process? *Usul Islamic Studies*, 4(4), 39–71. (In Turkish)
9. Yighit, F. M. (2021). *The Flood of Noah in Turkish mythology and the golden advice of Ubara Tutu Khan of the Sumer Turks.* pp. 10–13. (In Turkish)
10. Ataman, S. (2016). *Forgotten verses.* Istanbul: Berfin Publications, p.146. (In Turkish)
11. Nikitin, K. A. (1882). The city of Nakhchivan and Nakhchivan district. Tiflis, *Collection of Materials for the Description of Localities and Tribes of the Caucasus* (SMOMPK), vol. 2, part 1, p.142. (In Russian)
12. Latifoghlu, R. (2019). Iskele, Skala, Skul, Okul: The first historical location of education. *Anamur Sedir*. (In Turkish)
13. Agaeva, F. N., & Vezirov-Kengerli, F. H. (2021). The city of Nakhchivan – The Beginning of Beginnings. *Humanitarian Balkan Research, 5*(2), 36–40. (In Russian)